# AZƏRBAYCANLILARIN SOYQIRIMI TARİXİ SƏNƏDLƏRDƏ

Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı faktına siyasi qiymət ilk dəfə 1919 və 1920-ci illərdə verilmişdir. Azərbaycan Xalq Cümhuriyyətində martın 31-i ilk dəfə matəm günü kimi qeyd edilmişdir. 78 il sonra 1998-ci ilin martında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycanlıların soyqırımı haqqında Fərman imzalamışdır. Bu tarixi sənəddən öncə ölkə rəhbərimiz 18 dekabr 1997-ci ildə "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərman vermişdir. Bununla da tarixin açılmamış qanlı səhifələrindən birinə həqiqət işığında baxmaq imkanı yaranmışdır. Həm bu mühüm tarixi sənədlərdə, həm də dövlət başçımızın soyqırımı ilə bağlı çıxışlarında, xalqımıza müraciətində bu antibəşəri akta ətraflı siyasi qiymət verilmişdir.

Ayrı-ayrı əsrlərdə xarici ölkələrə səpələnmiş ermənilərin bir yerə toplanması üçün verilən hökmdar fərmanlarına diqqət yetirsək, xronoloji ardıcıllıqla eyni ssenari əsasında bir məqsədə xidmət etmənin nəticəsini gördükdə heyrətə gəlməyə bilmirsən ki, müsəlman-xristian münaqişəsi zəminində bu addımlar məkrli, hiyləgər şimal qonşularımız tərəfindən mütəmadi olaraq həyata keçirilmişdir. 1695-ci ildə Şah Abbas və 1723-cü ildə I Pyotr ayrı-ayrı ərazilərdə yaşayan kiçik erməni tayfalarını bir yerə toplamaq haqqında fərman imzalayıblarsa, 1768-ci ildə II Yekaterina ermənilərə xüsusi diqqət və qayğı bəslənməsinə, 1799-cu ildə isə I Pavel ermənilərin Qazax rayonu ərazisində sərbəst yaşamasına dair Tiflisin hakimiyyət dairələrinə göstəriş vermişdir. 1800-cü ilin əvvəllərində isə gürcülərin və ermənilərin bir qrup gənclərinə hərbi təhsil vermək üçün onları Rusiyanın ayrı-ayrı şəhərlərinə oxumağa göndərmişdilər. 1828-ci il Türkmənçay müqaviləsinin bir bəndində ermənilərə sərbəst olaraq Gürcüstan, Azərbaycan və Türkiyə ərazilərində yaşamaq hüququ verilir. 1828-ci ilin fevral ayında I Nikolay həmin müqaviləni təsdiq edib və 20 martda belə bir fərman imzalayıb ki, Naxçıvan və digər ərazilərdəki ermənilər Ermənistana cəmlənməklə onlara muxtariyyət verilsin. 1918-ci il 29 mayda bizim Milli Şuraya təzyiqlərin nəticəsində Ermənistan dövlət elan olunub. 1948-ci ildə Sov. İKP MK Ermənistan SSR-dən azərbaycanlıların köçürülməsi haqqında qərar verdi. 1988-ci ildə isə M.S.Qorbaçovun rəbərliyi altında həyata keçirilən işlər və verilən qərarlar, nəhayət ki, azərbaycanlıların Qərbi Ermənistandan tamamilə köçürülməsi, yurd-yuvalarından didərgin salınması, qətllər, habelə torpaqlarımızın 20 faizinin işğalı ilə nəticələndi. Atəşkəs elan olunmasına baxmayaraq, bu gün də müharibə vəziyyətindəyik. Yuxarıdakı faktlar onu deməyə əsas verir ki, uzun illər ermənilərə xüsusi diqqət göstərilmiş (əsasən Rusiya, Fransa tərəfindən) və onları məlum ərazilərdə yerləşdirmək üçün zaman-zaman mənəvi və maddi deportasiyalar həyata keçirilmişdir. Ermənilər bu qlobal əhəmiyyətli məsələni həyata keçirmək üçün üç prinsipi reallaşdırmağa nail olmuşlar. Bunların birincisi, ayrı-ayrı dünya ölkələrinə səpələnmiş erməniləri bir yerə cəmləşdirmək, ərazilərin boşalması üçün deportasiyaları həyata keçirmək, nəhayət, üçüncü amil isə coğrafi, tarixi yer adlarını dəyişdirib özününküləşdirmək. Paradoksal vəziyyətdir ki, 1831-ci ildə bir erməni yazıçısı tarixi əsərində göstərir ki, ermənilər kiçik yaşayış məntəqələrindən bir yerə — İrəvana cəmlənmiş xalqdır.

Çox qədimlərə nüfuz etmədən XVIII əsrin birinci yarısına ötəri də olsa, nəzər yetirək. I Pyotr Vəsiyyətnaməsinin 8 və 9-cu bölməsində yazırdı:

"...8. Rus sərhədlərini genişləndirmək övladlarımızın vəzifəsidir...

9. Rusiyanı dünya dövləti etmək o vaxt mümkündür ki, İstanbul onun paytaxtı olsun. Ona görə ki, İstanbul Avropa və Asiya xəzinələrinin açarıdır. Hər vəchlə çalışıb o torpaqları almaq lazımdır. Ona görə ki, İstanbula sahib olan şah dünyada ilahi şah olacaq.

Türkiyə dövləti məhv olmadan İranın canını almağımız məsləhət deyil... Rusiyanın təsəllüt neştəri İranın şah damarına yetişərsə, ürəyinin zəif qanı açılacaq, elə bihal olacaq ki, Əflatun dirilib gəlsə, sağalda bilməz...".

İki nəhəng müsəlman imperiyası olan Türkiyə və İrana şimaldan açılan qapı Azərbaycan idi. Bunu Rusiyanın imperiya siyasətçiləri və strateqləri yaxşı bilirdi və bu məqsəd üçün ermənilər bir vasitə kimi seçilmişdi.

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı etnik təmizlənmə, deportasiya və soyqırımı siyasəti işğalçı Rusiyanın Qafqaza gəlişi ilə əsasən XVIII əsrin 20-ci illərindən başlayaraq 1813-1828, 1905-1907, 1918-1920, 1948-1953-cü illərdə və 1988-ci ildən sonra mərhələ-mərhələ həyata keçirilmişdir.

1721-ci ildə İsveçlərlə Niştadt sülhündən sonra Rusiya çarı I Pyotr Xəzər dənizinə çıxmağı qərara aldı və bu, Xəzərətrafı şəhərlərin, o cümlədən Azərbaycanın Dərbənd, Bakı kimi şəhərlərinin işğalı ilə nəticələndi (1723). Yerli əhalinin kəskin narazılığı və müqavimətini görən I Pyotr öz işğalçı imperiya məqsədlərinə nail olmaq üçün nəyin bahasına olursa-olsun, Gilanda, Mazandaranda, Bakı və Dərbənddə ermənilərin və xristianların yerləşdirilməsi zərurəti qənaətinə gəldi.

Bu məkrli siyasəti sonrakı rus imperatorları davam etdirdilər. 1768-ci ildə II Yekaterina erməniləri himayə etməsi barədə fərman imzaladı. 1802-ci ildə çar I Aleksandr N.Sisianova məktubunda yazırdı: "Nəyin bahasına olursa-olsun, ermənilərdən Azərbaycanın bu və ya digər xanlıqlarında istifadə edilməlidir".

IV əsrdən üzübəri nə az, nə çox, düz 1500 il dövlətçiliyə malik olmayan ermənilər bu fürsəti əldən vermədilər və Rusiyanın cənub hüdudlarındakı bir ərazidə qüdrətli və etibarlı bir erməni dövləti yaratmaq planını təqdim etdilər. Həmin planı Rus imperatoruna hələ 1783-cü ildə çar sarayının məmuru Hovsen Arqutyan təqdim etmişdir. 1828-ci il martın 3-də general Paskeviç baş qərargah rəisi Dibiçə yazırdı ki, boşaldılmış müsəlman torpaqlarında imperiyaya sədaqətli olan erməniləri məskunlaşdırmaq gərəkdir. Çox keçmədən Paskeviç fərəhlə xəbər verirdi ki, artıq İrəvana 948 erməni ailəsi gətirilib, tezliklə onların sayı beş minə çatacaq.

1828-ci il martın 21-də Rusiya imperatoru I Nikolay İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni vilayəti" yaradılması haqqında fərman imzaladı. Türkiyədən gətirilən 84 min erməni əsasən bu vilayətdə yerləşdirildi. 119 azərbaycanlı kəndi birbaşa "erməniləşdirildi". Soyqırıma beləcə iri addımlarla başladılar. İrəvan quberniyasında ermənilərin sayı 443 min nəfərə çatdı. Halbuki, 1828-ci ildə əhalinin milli tərkibindəki nisbət İrəvan şəhərində belə idi: müsəlmanlar — 1807 ailə, (7331 nəfər), ermənilər - 567 ailə, (2269 nəfər).

General Kotlyarovskinin bir raportunda deyilirdi: "1806-cı ildə Qarabağdan 412, 1810-cu ildə 248, 1811-ci ildə 707, 1812-ci ildə 1177 - 4845 ailə öz doğma ocaqlarından didərgin salınıb". Söhbət azərbaycanlı ailələrindən gedir.

General Yermolov soyqırımını yeganə yol hesab edərək yazırdı: "Asiyanın gözünə rəhmdil görünmək zəiflik əlamətidir. Bir müsəlmanı edam etməklə yüz rusun həyatını xilas etmiş olarsınız".

İqtisadçı-tədqiqatçı İ.Şopen yazırdı: "İrəvan əyaləti ruslar tərəfindən ilhaq ediləndən sonra burada 2948 azərbaycanlı ailəsindən cəmi 847-si qalmışdı. 2137 ailə İrana və Türkiyəyə qaçmışdı. Əyalətdə azərbaycanlıların sayı 3,5 dəfə azalmışdı".

Qazax mahalında: 1817-ci ildə 7266 azərbaycanlı ailəsi olub. 1831-ci ildə cəmi 4960 ailə qalıb.

Quba əyalətində: 1796-cı ildə 23147 azərbaycanlı ailəsi olub. 1810-cu ildə 12813 ailə qalıb.

Gəncədə: Birinci rus-İran müharibəsi zamanı 1000 azərbaycanlı ailəsi Cavad xanın oğlu Uğurlu ağa başda olmaqla, ana yurdu tərk edib.

Pəmbəkdə (Gümrü ətrafı): Əsrin əvvəlində 950 azərbaycanlı ailəsi olub. 1854-cü ildə 116 ailə qalıb. Əsrin sonunda heç bir nəfər də qalmayıb.

Naxçıvan xanlığı: 1827-1828-ci illərdə 4170 azərbaycanlı ailəsi olub. Türkmənçay, Adrianopol (1929) müqaviləsindən sonra 1400 ailə vətəni tərk etməli olub.

Şəmşəddin bölgəsi: 1804-cü ildə 21714 azərbaycanlı olub. 1817-ci ildə 10236 nəfər qalıb. Bəs ermənilər?

Yelizavetpol quberniyasında: 1873-cü ildə 99918 nəfər - əhalinin 16,8 faizi, 1916-cı ildə 418859 nəfər- əhalinin 32,6 faizi.

Bakı quberniyası: 1873-cü ildə 13133 nəfər əhalinin 2,4 faizi, 1916-cı ildə 119885 nəfər - əhalinin 9,3 faizi.

İrəvan quberniyası: 1873-cü ildə 221191 nəfər. 1916-cı ilə 669871 nəfərə çatdırılmışdı. Təkcə bu quberniyada (İrəvan) 11 ildə (1886-1897) ermənilərin sayı süni yolla 159151 nəfər - 17,18 faiz artmış, azərbaycanlıların sayı isə 27422 nəfər - 7,22 faiz azalmışdı.

M.S.Ordubadi deyirdi: "İrəvan mahalı bir yanar dağa, vulkana dönüb nəcib islam millətini yandırmaqda, boğmaqda idi".

Bu vulkanda 10 min azərbaycanlı qurban getmişdi. 200-dən artıq kənd dağıdılmışdı. 1915-ci il aprelin əvvəlində Qars vilayətində ən azı 40000 türk-müsəlman qətlə yetirilmişdi.

29 aprel 1918: Gümrüdən 500 araba ilə qaçmaqda olan 3000 qadın, qoca, uşaq yolda qətlə yetirildi.

Qarsdan qayıdan erməni silahlı dəstələri Qarsda 82, İrəvan quberniyasında 211 müsəlman kəndini yandırdı, əhalisini qətlə yetirdilər.

Castin və Karolin Makkartilər yazırdılar: Birinci Dünya müharibəsi zamanı Qafqazdan 530 min müsəlman qaçqın düşmüşdü. Ümumiyyətlə, 600 min erməni, 2,5 milyon müsəlman həlak olmuşdu.

1918-ci ildə erməni silahlı dəstələri Bakı quberniyasında 229 kəndi, Gəncə quberniyasında 272 kəndi, təkcə Zəngəzurda 115, Qarabağda 157, İrəvan quberniyasında 211, Qars vilayətində 82 kəndi yerlə-yeksan etmiş, yüz minlərlə əhalini qılıncdan keçirmiş və ya didərgin salmışlar.

Göyçədə 60 min əhalisi olan 22 kəndi dağıtdılar. Nüfuzlu el şairi, ustad Aşıq Nəcəfin belinə qaynar samovar bağlamışdılar.

Azərbaycandakı qırğınları törədən Lalayan deyib ki, daşnaklar 30 aylıq hökmranlıq dövründə Ermənistanda azərbaycanlıların 60 faizini qətlə yetiriblər.

1918-1920-ci illərdə mauzerçilər Ermənistanda 575 min azərbaycanlıdan 565 min nəfərini qırmış və didərgin salmışdılar.

Daşnak mauzerçilər 1918-1919-cu illərdə təkcə Zəngəzur qəzasında 115 kəndi yandırmış, 3275 kişi, 2276 qadın, 2196 uşaq öldürmüşlər. 1060 kişini, 784 qadını, 425 uşağı vəhşicəsinə yandırmışlar. Qəza üzrə 10068 azərbaycanlı qətlə yetirilmişdir. 1918-ci ilin martında 199 kəndi dağıtmış, 135 min nəfəri qətlə yetirmiş və qovmuşlar.

1918-ci il martın 31-də Bakıda 50 min azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilmişdir. Onların 46 min nəfəri dağüstü parkda - indiki Şəhidlər Xiyabanında dəfn olunmuş, 4 mini isə yandırılmış, yaxud Xəzər dənizinə tökülmüşlər. Göyçay, Şamaxı, Quba, Dərbənd şəhərində də belə qətllər olmuşdur.

1919-cu ilin 9 ayında İrəvan quberniyasının bütün kəndləri yerlə-yeksan edilmişdir. Zəngəzurun Vağudi kəndində (Sisyan rayonu) 400 nəfəri məscidə yığıb yandırmışlar. 1918-ci ilin aprelin əvvəllərində Tbilisidə keçirilən Zaqafqaziya dövlətlərinin konfransında Ermənistan nümayəndəsi birgə müdafiədən imtina edir. Deyib ki, "Biz İrəvan ərazisi ilə kifayətlənə bilmərik".

Rusiya imperiyasının dəstəyi ilə sonra Zəngəzur və Göyçə də itirildi. Ermənilərin iddiaları çox böyük idi. 20-30-cu illər repressiyasını, 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlının deportasiyasını da itkilərimizə əlavə etsək, milli faciəmizin genişliyini dərk edə bilərik.

1988-1989-cu illərdə isə Ermənistanın (İrəvanın) 259 kəndindən azərbaycanlılar tamamilə qovuldu, yurdlarından didərgin düşdülər.

Rus yazıçısı M.Qorkinin bu ifadəsi həmin hadisələr üçün çox xarakterikdir: "Bu işin arxasında hamımızı eyni ölçüdə əzməkdə olan çar hökuməti dayanırdı...".

Tarixdə 15 min müharibə olub. Lakin heç biri erməni təcavüzünün qəddarlıq və vəhşiliyinə bənzəmir. Onlar təkcə ərazimizi zəbt etməklə kifayətlənməyiblər, soydaşlarımızı qırıb, Xocalı faciəsi kimi soyqırımı törədib, əhalini öz yurd-yuvalarından didərgin salıblar. İkinci Dünya Müharibəsində alman faşistləri də belə qəddar və amansız olmayıblar...

**Baba BABAYEV,**
**filologiya elmləri doktoru.**